# Günəşin elçisi



■ Elçin İsgəndərzadə

**əvvəli ötən sayda**

**Jaləmə**

*Kimin gözlərinin almazlarıydı bu belə,*
*İşartısı qamaşdırdı dünyanı.*
*Kimin dodaqlarının təbəssümüydü, bu belə,*
*Çəhrayısı çaşdırdı dünyanı?*
*Qızım, quzum, çəmənim Jaləmin!*
*Məktəbinə-dərsinə bir çanta əvəzinə*
*İki çanta dəftər-kitab daşıyan çiçəyim,*
*Əlaçı göyçəyimin təbəssümüdür, bu belə!*
*Oy, sən mənim qu quşum! Bitməyən düşüncəm...*
*İncidər çiyinlərini İTAƏT!... Qorxuram, balacam,*
*Mən səni gələcəkdə Dövlətin*
*"fərağat çinovniki" - məmuru deyil də,*
*Mən səni Dövlətin içində*
*"Adam!" görmək istəyirəm, əvvəlcə! Mələyim...*

* * *

Göydən üç alma düşdü...
Biri nağıl deyənin,
biri Nurəngizin,
biri də...

Nağıl deyənləri çoxuydu dünyanın. Çoxlu nənələr varıydı nəvələrinə nağıl söyləyən. Çoxlu nəvələr varıydı nağıllarda uyuyan, qızılgülə batan, şirin yuxular tapan.

Sonra o çoxlu nənələr bir-bir köçdülər bu dünyadan, o biri dünyaya getdilər nağıllarını danışmağa.

Bu dünyadakı nənəsiz nəvələr böyüyüb, böyüyüb nənə oldular, baba oldular və o qədər böyüdülər ki, axırda nəvələrinə nağıl dedilər, rəvayət söylədilər.

Bir də gözlərinə inanmadılar bu qədər böyüdüklərinə.

Hər nağıl söyləyəndə bir az da uşaqlaşdılar, bir az da saflaşdılar, nağıllara inandılar.

İnandılar ki, göydən üç alma düşür.
Biri nağıl deyənin olur,
biri nağıla qulaq asanın olur,
biri də... heç kimin.

Dünya binə olandan heçliyin nağılının ötür-ötürüdü yaşam.

O buna ötürür, bu ona ötürür və beləkeçdiyi yollardan,
saldığı yollardan,
elə keçmədiyi yollardan da.

Bütün yolları burulub-burulub bir yorğun və şirin ədəbiyyat yoluna çıxırdı.

O bu yoldaydı,
Bu, onun yolu, onun haqqıydı.
Yol haqqı varıydı zərif çiyinlərində.
Və yolları daşıyırdı bir yola çıxmağa,
Bütün yollar bir yola çıxırdı, bütün yollar bir yola çıxmaq üçünüydü.

* * *

Bir də ağacı, suyu, çiçəyi, daşı, hər şeyi dinləyirdi... Susub dinləyirdi bütün susqunluqları. O susurdu, hər şey susurdu, amma hər şey danışırdı o susqunluqda.

*- Ürək susur, dodaq susur,*
*ağac susur, budaq susur.*
*nə bir hənir, nə bir nəfəs*
*qımıldanmayır yarpaqlar.*
*gecə yalqızlıq nəğməsi deyir.*

Və bütün hayqırtılar içində çox susqunluqlar varıydı. O bu susmaların dilində yazırdı, susmaları yazırdı.

Ağacın susmasındakı pıçıltıları eşidirdi, budaqların harayı dəlirdi qulaqlarına, çiçəklərin kədəri süzülürdü ürəyinə, ürəyi danışırdı susmuş bir aləmdə.

Biz çoxuyduq, o qədər çoxuyduq ki, dünyanı tuturduq.

Gəlişimizlə dolmuşdu dünya, sevinmişdi dünya.

Ağaclarımız, güllərimiz, yuvalarımız varıydı. Biz o yuvalarda məsud idik.

O ağacların budaqlarında şən-şən ötməkdəydik.

Sonra nə oldu, necə oldusa, heç özümüz də bilmədik.

Bir əli baltalı gəldi, kəsdi ağaclarımızı. Dağıldı yuvalarımız, pərən-pərən olub dağıldıq. Bir-birimizdən ayrı düşdük. Sevdiklərimizdən uzaq olduq. Ayrılıq şığıdı dünyamıza. Dünyamız qaraldı, daraldı, boşaldı...

- Xoş gəldin son ayrılıq, qol-boyun olaq.

Artıq qorxum yox, qol-boyun olaq.

Son ayrılıq!

Ayrılıq sonuydumu, ayrılığın sonu varıydımı, son ayrılığıydımı...

Bilmirdik, bilmirdik.

Amma onu, onu bilirdik ki, hər şeyin sonunda bir ayrılıq var.

Bəlkə də, hər şeyin əzəlində də, əvvəlində də ayrılıq durur. Bəlkə də...

Bir biz idik... bir də ayrılıq.

Marığa yatıb, bizi izləyirdi, pusurdu üstümüzə şığıyıb bizi bir-bir öz dünyasına



*Yəni ki, içəri qəhərləri daha asan qavrayan*
*Həssas (!)... bir inikas, insanı çərlətməyən Möcüzə -*
*Təzə İnsan arzu edirəm səni!*
*...Oy, mən bildim nə dedim, bitməyən düşüncəm...*
*Gözləri almaz qamaşı,*
*Qu quşum! Büllurum!*
*O Mehrabdan ucalasan, inşallah!*
*Ən göyçək Jaləciy...*

* * *

Beretləri Günəşi xatırladırdı.

Zadəganlığın, kübarlığın, ağayanalığın cizgiləri varıydı ədasında, davranışında, bir də ger-geyimində.

Hər dəfə onu beretdə görəndə yadıma uzaq illərin filmləri, ordakı gözəl xanımlar düşürdü.

Onu beretsiz təsəvvür etmək olmurdu.

Başına qoyduğu müxtəlif rəngli beretlər Günəşiydi sanki.

Elə bil başına Günəşi qoyub gəzdirirdi.

Güləndə sanki Günəş gülürdü.
Ağlayanda Günəş ağlayırdı.
Yeriyəndə Günəş yeriyirdi.
Beret xüsusi yaraşırdı ona.
Qədim gözəllərə bənzəyirdi.
Geyimində bir klassika varıydı...
Beretli klassika.

Beretlər də rəngbərəng idi, həyatın rəngləri kimi.

Qara beret, qara günləriniydimi, qız!
Qara beretlə keçdin ağ günlərdən.
Ağ beret ağ günləriniydimi, qız!
Ağ beretlə keçdin qara günlərindən.
Sonra qırmızı beret,
sarı beret,
göy beret.

Neçə rəng beretlərlə keçdin bir ömürdən,

keçdin ömürlüyündən.

Beretlərin rəngi ömrünün rəngləri kimi neçə çalarlı idi.

Qaranın neçə çaları,
ağın neçə çaları,
mavinin neçə çaları varıydısa, hamısından yol saldın.

Bir şeir yolu.
O şeir yolu göyqurşağına çıxırdı,..
Göy qurşağı da göyün bereti idi.
Və
Bir beretli xanım keçdi Bakı küçələrindən, Bakı gecələrindən, Bakı gündüzlərindən.

Deyəsən? sonuncu beretli xanımıydı,
sonuncu beretli gözəl.

Bir xəyal kimi keçdi sonuncu beretli xanım.

cə davam edir həyat, nağıllar, uşaqlıq, böyüklük.

Heçlikdə bu qədər var olmaq, bu qədər nağıllı olmaq ancaq bəşər övladının işidir. Bəşər övladıdır yarandığı gündən çarpışan, vuruşan, bir iz qoyub getmək istəyən.

Hər şeydə bir iz qalır sonra...
Bir yaşam izi, bir nağıl izi, bir alma izi.

*Göydən üç alma düşür yenə də,*
*Biri nağıl deyənin,*
*biri qulaq asanın,*
*biri də ...əbədiyyətin.*

Bu yaşam, bu dünya, bu həyat bir əbədiyyət nağılıdır heçlikdə.

Əslində, hərə öz nağılını söyləyir,
Kimi Gün adında,
Kimi Ay adında,
Kimi İl adında,
Kimi də heç kim adında.

* * *

Əslində, yollar çoxuydu...
Biri dənizə aparırdı, biri qayalara.
Biri nağıllara aparırdı, biri xəyallara.
Biri uzaqlara aparırdı, biri yaxınlara.
Biri də özünə gedən yoluydu.

Hara gedirdisə axırda özünə gedən yola qayıdırdı, özünə qayıdırdı.

Öz yolunda özünü axtarırdı, özünü tapırdı və özünü yazırdı.

Hələ Günəşə gedən yol varıydı,
hələ ümidə gedən yol varıydı,
hələ xatirələrə gedən yol.

İlahi, yolları nə qədəriydi bu dünyanın.
Və o yol gedirdi, gedirdi yol olanadək.
O da bir yol idi, əslində.
Xatirə yolu, ümid yolu,
şeir yolu, nağıl yolu, sevgi yolu...
Nələr gördü o yollarda, nələr.
Kimləri itirdi, kimləri tapdı.
İtirdiyi çox idi, bəs tapdığı nəyiydi.
Bütün yollar sonra ədəbiyyata çıxdı,
ədəbiyyata gedən yoldaydı.

Bütün yollar ədəbiyyata görəydi heç demə.

Heç demə əbədiyyətin yolu da ədəbiyyatdan keçirdi.

Bir ədəbiyyat yoluydu yolu,
Günəşi doğub batmayan,
ümidi tükənməyən,
mürəkkəbi bitməyən.
Mürəkkəbi bitmədi yazdıqlarının,..
Yazdı, yazdı, yazdı, şair oldu.
Hər şeydən yazdı -

Elə şeylər varıydı ki, onları susmaqla anlamaq, susmaqla anlatmaq gərəkirdi. Bağırmaqla, çığırmaqla olmurdu.

Və beləcə bir sevgi də susurdu içində. Deyirdi ki,

- Sevgidə mən yoxam eyy, sevgidə o vardır. Budur sevgi. Cünun yoxuydu özü, o varıydı. Onunçün Cünun dünyaya yayıldı.

Cünun kimi gəzirdi öz aləmində. Cünunluğu sətir-sətir vərəqlərdə şeir olurdu.

*Yenə də susurdu..*
*Ağacı dinləyirdi,*
*böcəyi dinləyirdi,*
*gecəni dinləyirdi...*

* * *

Hanı, deyirdi, o qədər adamlar, hanı?

Hanı deyirdi, o gözəl aləm, o gözəl dünya hanı?

O havalar hanı?
O sevgilər,
o baxışlar,
o duyğular...
Çıxdığımız o yollar necə oldu?
Sevdiyimiz o doğmalar hara getdi ?
Niyə getdi,
Nədən getdi.
Nədən belə oldu hər şey.
Xəzan vurdu, soldu bağ-bağatlar.
Yarpaqlar günlərimiz kimi saraldı,
Günlərimiz ömrümüzdən qopub getdilər.

Axı, niyə?

Axı biz sevdiklərimizlə güclüydük, xoşbəxtiydik, gözəliydik.

Gözəlliklər getdi sevdiklərimizin gedişiylə.

Nə qaldı ki...
Heç qalanlar da qalmadı...

- Əl çək məndən sarı dünya,
daha çəkil gözlərimdən,
əbədilik tək qalıram.

Tək qalmışdı, qatardan qalmışdı, köçdən qalmışdı.

Tələsirdi o qatara çatmağa, o köçdə öz yerini tutmağa.

Bir durna çırpıntısı varıydı qollarında, bir qəriblik nəğməsi varıydı dodaqlarında,

- Ay lolo, qəribəm bir yol göstər,
Ay lolo hansı diyara gedim ?

* * *

Bir biz idik...

aparırdı.

Biz həyətdə hava qaralana qalanda, analarımız qorxudardı ki, evə tez gəlin, "xoxan" sizi gəlib oğurlayar. O vaxt qaranlıqdan qorxub, evə qaçardıq. Qaçardıq ki, "xoxanlar" bizi oğurlamasın.

Amma heç valindeyinlərimiz də, biz də o böyük "xoxanı", ayrılığı görə bilmirdik yanımızda, evimizdə, yolumuzun üstündə, gülüşümüzdə, qollarımızda.

Ayrılıq hər yerdəydi...

Ayrılıq hər guşədə bizi gözləyirdi bağrına basmağa.

Bir biz idik...bir də gözü çıxmış ayrılıq.

* * *

Uzun-uzun tellərin necə oldu, qız!
Ağ-ağ əllərin hara uçdu, qız!
O şaqraq səsin harda batdı, qız!
O duru baxışın harda dondu, qız!

Hələ o dağlar, o vadilər, hələ o sahilləri deyirəm, dənizi deyirəm, su pərilərini deyirəm... necə oldu, qız!

Dərd qoşun-qoşun gəldi.
Hamı dərdləndi.
Dərd görməyən ürəklərə xal düşdü,
Xal düşdü dünyanın xoşbəxtlik tərəfinə.
Dünya dərdləndi.
Ya bəlkə də dünya dərd dünyasıydı.
Fərqinə varmamışdın, qız!

Sonra anladın, sonra dərk etdin. Hamı gedəndən sonra.

Sonra sən də çıxıb getmək istədin.
Dünya dərdlə doludur, dedin.

Yaşamaq zor, dərdlərə tablamaq zor, dərdlərin içində gülmək zor və özünü dərdsiz göstərmək daha zor.

Yaşam bir ağrıydı, qız!

O ağrıdan keçdin və ağrılar da səndən keçdi.

Daha nə qaldı ki, keçməyə.
Dünyanın ağrı üzündən keçdin, qız!
Və hamını xoşbəxt görmək istədin.
Və heç vaxt özünə xoşbəxt demədin.
Deyə bilmədin.

Amma bəlkə də sən hamıdan xoşbəxtiydin, qız!

Xoşbəxtiydin ağrılarınla, acılarınla, gözəlliyinlə, duyğularınla.

Xoşbəxtiydin ağuşuna qısılan Jalənlə!

**Ardı var**